*(Fərqanə Mehdiyevaya)*

Gözlərində fağır ömür
əl eləyir şəkillərdən.
Ağrısını-acısını
gülümsəyir şəkillərdən.

Sus, sözü var varağına,
Bir ağacın budağına.
Bir körpənin qucağına
boyun əyir şəkillərdən...

Tanrıdı, göydü, sənsən,
torpaqdı, yeldi, sənsən.
Üz tutub Yola, getmisən,
Yol inciyir şəkillərdən...

Çağıranın biri mən
Hay ver, öpüm səsindən...
Kimisi gözündə yaş,
kimisi saçında dən.
Səni oxşayır...səni
əzizləyir şəkillərdən...

***

İndi əllərimdə darıxan məktublar
Gənc ikən evimizə səhər olublar...
İndi əllərimdə darıxan məktublar
Gənc ikən məndən də
ümid umublar...
Verməmişəm, ömürdən küsüb,
bir ovuc göydə solublar...

Anamın səsinə sevinər,
Güllərə torpaq,
buludlara kölgə olardı...

Buludların kölgəsində
öz ömrünü ovudardı...

İndi əllərimdə darıxan məktublar
Bilmir yaddaşını kimdə itirsin...
Bilmir evimizi kimə tapşırsın...
Quş uçmur quşa,
yel əsmir, yelə tapşırsın...

İndi əllərimdə darıxan məktublar
Adım yola düşsə, darıxacaqlar...
Göz yaşından tanıyacaq məni



Üşüyür sözlər daha
Susmusan, çıxmır sabaha...
Adını çağırırlar,
Qəhərlənir şəkillər də.

İndi əllərimdə darıxan məktublar,
Atamın üzünü görsə
dönüb körpə olardı...
İndi əllərimdə darıxan məktublar

Əllərində məktub böyüdən bütün
uşaqlar...

**Aydan Ay**